AUDITOR

**AZƏRUÇOT**
MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏT

Azərbaycan, Bakı şəhəri, AZ 1025
Babək prospekti, 12A, blok C, mərtəbə 4, qapı 2
Tel: +994 12 460 71 12
Mob:+994 50 800 69 59
E-mail: azerucot@gmail.com
Web: www.azerucot.az

# MÜSTƏQİL AUDİTORUN HESABATI

**"Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi" PHŞ-nin Rəhbərliyinə:**

## Şərti rəy

Biz, **"Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi" Publik Hüquqi Şəxsin** (bundan sonra – Mərkəz) 31 dekabr 2024-cü il tarixinə maliyyə vəziyyətinə dair hesabatından, maliyyə fəaliyyətinin nəticələrinə dair hesabatından və göstərilən tarixdə başa çatan il kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, eləcə də əsas uçot siyasətinin və digər izahedici məlumatların xülasəsindən ibarət olan maliyyə hesabatlarının auditini apardıq.

Bizim fikrimizcə, "Şərti rəyin bildirilməsi üçün əsaslar" bəndində açıqlanan məsələlərin vacibliyini nəzərə alaraq, hazırki maliyyə hesabatları Mərkəzin 31 dekabr 2024-cü il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə başa çatan il üzrə maliyyə fəaliyyətinin nəticələrini və pul vəsaitlərinin hərəkətini bütün əhəmiyyətli aspektlər baxımından Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına "MHBS" uyğun olaraq **düzgün əks etdirmir**.

## Şərti rəyin bildirilməsi üçün əsaslar :

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə Bizim məsuliyyətimiz rəyimizin "*Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti*" bölməsində əks etdirilir. Biz Mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurasının dərc etdiyi Peşəkar Mühasiblərin Etika Məcəlləsinə (IESBA məcəlləsi) uyğun olaraq Mərkəzdən asılı olmadan müstəqil şəkildə fəaliyyət göstəririk. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir. Biz, Mərkəzin auditoru kimi 14 iyul 2025 -ci il tarixdə təyin edildik və buna görə də 31 dekabr 2024-cü il tarixinə mal-material ehtiyatlarının və əsas vəsaitlərin fiziki inventarizasiyasını müşahidə edə bilmədim. Biz digər audit prosedurlarını tətbiq etməklə 31 dekabr 2024-cü il tarixinə mal-material ehtiyatlarının və əsas vəsaitlərin kəmiyyətinə dair əminlik əldə edə bilmədik. Eyni zamanda Mərkəzin mühasibat kompyuter proqramlarında debitor və kreditor borcları ilə bağlı sənədlər əldə etmək mümkün olmamış və bizim auditor hesabatımızın tarixinədək rəhbərlik tərəfindən həmin problemlər aradan qaldırılmadığına görə, 31 dekabr 2024-cü il tarixinə maliyyə vəziyyətinin hesabatında əks etdirilmiş debitor və kreditor borclarını alternativ prosedurların köməyi ilə təsdiqləyə bilmədik. Mal-material ehtiyatlarının qalıqları və eləcədə debitor və kreditor borcları maliyyə fəaliyyətinin nəticələri və pul vəsaitlərinin hərəkətinin müəyyən edilməsi prosesinin bir hissəsi

olduğu üçün biz maliyyə fəaliyyətinin nəticələri haqqında hesabatda göstərilmiş 31 dekabr 2024-ci il tarixində bitən il üzrə mənfəətlə bağlı və pul vəsaitlərinin hərəkəti haqqında hesabatda göstərilmiş əməliyyat fəaliyyəti üzrə xalis pul vəsaitlərinin hərəkəti ilə bağlı hər hansı düzəlişlərin zəruri olub-olmadığını müəyyən edə bilmədik.

**Maliyyə hesabatları üzrə rəhbərliyin və idarəetmə səlahiyyəti verilmiş şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə görə və maliyyə hesabatlarının hazırlanması ilə əlaqədar xətalardan qaynaqlanan əhəmiyyətli təhriflərin qarşısının alınması məqsədi ilə zəruri hesab etdiyi daxili nəzarət sisteminin təşkil edilməsinə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi və ya səhv nəticəsində, əhəmiyyətli təhriflərin olmamasına kifayət qədər əminlik əldə etmək və rəyimizin daxil edildiyi auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o BAS-a uyğun olaraq aparılmış audit nəticəsində mövcud olan bütün təhriflərin üzə çıxarılmasına zəmanət vermir. Təhriflər və ya səhv nəticəsində əmələ gələ bilər və fərdi və ya məcmu halda götürməklə hazırki maliyyə hesabatlarının əsasında istifadəçilərin qəbul edəcəyi iqtisadi qərarlara təsir göstərmələrini ehtimal etməyə əsas olacağı halda əhəmiyyətli hesab olunur.

**Direktor-Auditor** **Eldar Təhməzov**

Azərbaycan Respubilikasının
Auditorlar Palatası İCAZƏ: AT/238 22.11.2021-ci il

22 avqust 2025-ci il

## MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT

31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə

| Bölmə/ Maddə №-si | Bölmə/ Maddələrin adı | Uçot siyasəti və izahlı qeydlərin №-si | Hesabat dövrü | Əvvəlki dövr |
|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 |
| | **AKTİVLƏR** | | | |
| 1 | **Uzunmüddətli aktivlər** | | | |
| 10 | Qeyri-maddi aktivlər | 1 | 4 080 | 4080 |
| 11 | Torpaq, tikili və avadanlıqlar | 2 | 4 850 086 | 4 850 086 |
| 12 | İnvestisiya mülkiyyəti | | | |
| 13 | Bioloji aktivlər | | | |
| 14 | Təbii sərvətlər | | | |
| 15 | İştirak payı metodu ilə uçota alınmış investisiyalar | | | |
| 16 | Təxirə salınmış vergi aktivləri | | | |
| 17 | Uzunmüddətli debitor borcları | | | |
| 18 | Sair uzunmüddətli maliyyə aktivləri | | | |
| 19 | Sair uzunmüddətli aktivlər | | | |
| | **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | **4 854 166** | **4 854 166** |
| 2 | **Qısamüddətli aktivlər** | | | |
| 20 | Ehtiyatlar | | | |
| 21 | Qısamüddətli debitor borcları | | | 39 508 |
| 22 | Pul vəsaitləri və onların ekvivalentləri | 3 | 438 881 | 13 568 |
| 23 | Sair qısamüddətli maliyyə aktivləri | | | 316 904 |
| 24 | Sair qısamüddətli aktivlər | 4 | 52 547 | |
| | **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | | **4 914 278** | **369 980** |
| | **CƏMİ AKTİVLƏR** | | **5 345 594** | **5 224 146** |
| | **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | |
| 3 | **Kapital** | | | |
| 30 | Ödənilmiş nominal(nizamnamə) kapital | 5 | 4 870 743 | 4 870 743 |
| 31 | Emissiya gəliri | | | |
| 32 | Geri alınmış kapital (səhmlər) | | | |
| 33 | Kapital ehtiyatları | | | |
| 34 | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 6 | 132 476 | 44 476 |
| | **CƏMİ KAPİTAL** | | 5 003 219 | 4 915 219 |
| 4 | **Uzunmüddətli öhdəliklər** | | | |
| 40 | Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | | | |
| 41 | Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər | | | |

| | | | | |
|---|---|---|---|---|
| 42 | Təxirə salınmış vergi öhdəlikləri | | | |
| 43 | Uzunmüddətli kreditor borcları | | | |
| 44 | Sair uzunmüddətli öhdəliklər | | | |
| | **CƏMİ UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | | |
| **5** | **Qısamüddətli öhdəliklər** | | | |
| 50 | Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | | | |
| 51 | Qısamüddətli qiymətləndirilmiş öhdəliklər | | | |
| 52 | Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | | | 1 9874 |
| 53 | Qısamüddətli kreditor borcları | 7 | 9 490 | 10 2874 |
| 54 | Sair qısamüddətli öhdəliklər | 7 | 332 885 | 186 112 |
| | **CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | 342 375 | 308 927 |
| | **CƏMİ ÖHDƏLİKLƏR** | | **342 375** | **308 927** |
| | **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **5 345 594** | **5 224 146** |

**Rəhbərlik tərəfindən:**

**Fərid Şəfiyev**

**İdarə Heyətinin Sədri**

**Xəlil Xəlilov**

**Baş mühasib**

M.Y

## MALİYYƏ FƏALİYYƏTİNİN NƏTİCƏLƏRİ HAQQINDA HESABAT

31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə

| Bölmə/ maddə | Bölmə/Maddələrin adı | Uçot siyasəti və izahlı qeydlərin №si | Hesabat dövrü üzrə | Əvvəlki dövr üzrə |
|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 6 |
| 1 | **Gəlirlər** | | | |
| | Vergilər və məcburi ödənişlər üzrə qeyri-kommersiya gəlirləri | | | |
| | Kommersiya əməliyyatlarından gəlirlər | 8 | 110 000 | - |
| | Qeyri-kommersiya əməliyyatlarından gəlirlər | 8 | 1 958 038 | 2 399 840 |
| | Sair gəlirlər | 8 | 14,049 | - |
| | **Cəmi gəlirlər** | | **2 082 087** | **2 399 840** |
| 2 | **Xərclər** | | | |
| | İnzibati xərclər | 9 | (1 932 087) | (2 202 440) |
| | İstifadə edilmiş materialların dəyəri | | - | - |
| | Əmək haqqı, əmək haqqına görə ayırmalar və işçilərlə bağlı digər xərclər | | - | - |
| | Aktivlərin amortizasiya xərcləri və qiymətdəndüşmə zərərləri | | - | - |
| | Maliyyə yardımları və sair transfer ödənişləri üzrə xərclər | 9 | (40 000) | |
| | Sair xərclər | | - | - |
| | Maliyyə xərcləri | | - | (57 355) |
| | **Cəmi Xərclər** | | (1 972 087) | **(2 259 795)** |
| 3 | **Mənfəət (zərər)** | | | |
| | Ümumi mənfəət (zərər) | | **110 000** | **140 045** |
| | **Mənfəət vergisi** | | **22 000** | 28,009 |
| | **Xalis mənfəət (zərər)** | 6 | **88 000** | **112 036** |

**Rəhbərlik tərəfindən:**

**Fərid Şəfiyev**

İdarə Heyətinin Sədri

**Xəlil Xəlilov**

Baş mühasib

M.Y

## Kapitalda dəyişikliklər haqqında hesabat

31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə

| Bölmə/Maddələrin adı | Uçot siyasəti və izahlı qeydlərin №-si | Ödənilmiş nizamnamə kapitalı | Kapital ehtiyatları | | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | Cəmi |
|---|---|---|---|---|---|---|
| | | | Nizamnamə üzrə ehtiyat | Digər ehtiyatlar | | |
| Əvvəlki hesabat dövrünün əvvəlinə olan qalıq | | 4 870 743 | | | 101 614 | 4 881 357 |
| Əvvəlki hesabat dövründə xalis mənfəət (zərər) | | | | | 33 862 | |
| Sair məcmu gəlir | | | | | | |
| Əvvəlki hesabat dövrünün sonuna qalıq | | 4 870 743 | | | 44 476 | 4 915 219 |
| Səhvlərin düzəldilməsindən sonra hesabat dövrünün əvvəlinə qalıq | | 4 870 743 | | | 44 476 | 4 915 219 |
| Hesabat dövründə xalis mənfəət (zərər) | 6 | | | | 88 000 | 88 000 |
| Sair məcmu gəlir | | | | | | |
| **Hesabat dövrünün sonuna qalıq** | **6** | **4 870 743** | | | **132 476** | **5 003 219** |

**Rəhbərlik tərəfindən:**

**Fərid Şəfiyev**

İdarə Heyətinin Sədri

**Xəlil Xəlilov**

Baş mühasib

M.Y

# PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT

31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə

| Bölmə/Maddələrin adı | Uçot siyasəti və izahlı qeydlərin №si | 2024 | 2023 |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | | |
| Hesabat dövründə xalis mənfəət və ya zərər | 6 | 88 000 | 112 036 |
| Aşağıdakı maddələr üzrə düzəlişlər: | | | |
| mənfəət vergisi üzrə xərclər | | | 28,009 |
| **Dövriyyə kapitalındakı dəyişikliklərə qədər əməliyyat fəaliyyəti üzrə xalis pul vəsaitləri** | | | |
| Aşağıdakı maddələr üzrə baş verən dəyişikliklər: | | | |
| əməliyyat debitor borclarının azalması (artması) | | 39 508 | - |
| Maliyyə aktivlərinin azalması (artması) | | 316 904 | - |
| sair qısamüddətli aktivlərin azalması (artması) | | (52 547) | - |
| vergi və sair məcburi ödənişlər üzrə öhdəliklərin artması (azalması) | | (19 874) | 113 |
| əməliyyat kreditor borclarının artması (azalması) | | (93 451) | 99,187 |
| Sair qısamüddətli öhdəliklərin artması (azalması) | | 146 773 | (22 501) |
| Ödənilmiş (qaytarılmış) mənfəət vergisi | | - | (28 009) |
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **427 114** | **188 835** |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkətləri** | | | |
| Torpaq, tikili və avadanlıqların, qeyri-maddi aktivlərin və digər uzunmüddətli aktivlərin əldə edilməsi üçün pul vəsaitlərinin xaricolmaları | | - | (103 369) |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | - | **(103 369)** |
| **Pul vəsaitlərinin və onların ekvivalentlərinin hərəkəti** | | | |
| **bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin əvvəlinə olan məbləği** | **10** | **13 428** | **6,176** |
| il ərzində pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması) | | 425 452 | 85 466 |
| **bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin sonuna olan qalığı** | **10** | **438 881** | **91 641** |

**Rəhbərlik tərəfindən:**

**Fərid Şəfiyev**

İdarə Heyətinin Sədri

**Xəlil Xəlilov**

Baş mühasib

M.Y